# *Musiqi*

1. **"Mavriqi" rəqsi hansı xalqa məxsusdur?**
A) özbək B) tacik C) qırğız
D) azərbaycan E) türkmən

2. **Qara Qarayevin "Yeddi gözəl" baletindəki gözəllərin rəqsinin ardıcıllığını müəyyən et:**
**1.Slavyan gözəli 2.Hind gözəli 3.Məğrib gözəli**
**4.Bizans gözəli 5.Çin gözəli 6.Xarəzm gözəli**
**7.İran gözəli**
A) 1,2,3,4,5,6.7 B) 1,3,5,7,2,4,6 C) 2,4,6,1,3,5,7
D) 1,2,5,6,4,3,7 E) 5,4,3,1,2,6,7

3. **Musiqidə "melizm" nədir?**
A) notu yarım ton artıran alterasiya işarəsidir
B) səsin və pauzanın uzadılması
C) melodiyanı gözəlləşdirmək üçün əsas notdan əlavə yazılan notlar
D) notu yarım ton azaldan alterasiya işarəsidir
E) bir neçə səsin birlikdə səslənməsi

4. **Qadın rəqslərini seç:**
A) "Qaytağı", "İnnabı"
B) "Turacı", "Nəlbəki"
C) "Novruzu", "Nazeləmə"
D) "Köçəri", "Tərəkəmə"
E) "Yallı", "İnnabı"

5. **"Muğam" nə deməkdir?**
A) improvizə xarakterli şöbə, təsnif və rənglərdən ibarət vokal-instrumental musiqi əsəri
B) xalq və vokal musiqi nümunələrini birləşdirən musiqi janrı
C) xalq musiqisinin müxtəlif janrlarını birləşdirən musiqi növü
D) musiqili səhnə əsəridir
E) alət və alətlər qrupu üçün yazılmış musiqi

6. **Hansı bəstəkar özünün "Qarabağnamə" operasında Qarabağ Şikəstəsindən istifadə etmişdir?**
A) Aqşin Əlizadə B) Xəyyam Mirzəzadə
C) Hacı Xanməmmədov D) Əşrəf Abbasov
E) Firəngiz Əlizadə

7. **"Araqon xotası" və "Madriddə gecə" simfonik əsərlərinin müəllifi kimdir?**
A) M.İ.Qlinka B) Corc Bize
C) N.Rimski-Korsakov D) Cüzeppe Verdi
E) Qara Qarayev

8. **Çin minor ladında qammanın neçənci səsləri iştirak etmir?**
A) II və VI səslər B) III və IV səslər
C) V və VII səslər D) I və VII səslər
E) V və VI səslər

9. **Qara Qarayevin "İldırımlı yollarla" baletində olan obrazları seç:**
A) Məhinbanu, Şirin, Fərhad
B) Manriko, Traviata, Trubadur
C) Romeo, Cülyetta, Karmen, Fanni
D) Lenni, Sari, Mako, Gert Vilyer
E) Tristan, İzolda, Vaiz, Manriko

10. **Hansı opera Cahangir Cahangirov tərəfindən bəstələnib?**
**1. "Sevil" 2. "Müğənninin taleyi"**
**3. "Vətən" 4. "Qız qalası"**
**5. "Azad" 6. "Gəlin qayası"**
**7. "Aşıq Qərib"**
A) 1,3 B) 4,6 C) 2,5 D) 5,7 E) 3,7

11. **Üzeyir Hacıbəyli "O olmasın, bu olsun" operettasında aşağıdakı rəqslərdən hansını istifadə etmişdir?**
A) "Vağzalı" B) "Tərəkəmə" C) "Turacı"
D) "Cəngi" E) "Darçını"

12. **Ulu öndər Heydər Əliyev haqqında ilk monumental simfonik əsərin adı nədir və kim tərəfindən bəstələnib?**
A) "Azərbaycan kapriççiosu" Fikrət Əmirov
B) "Heydər" oratoriyası Oqtay Rəcəbov
C) "II simfoniya" Qara Qarayev
D) "IX simfoniya" Arif Məlikov
E) "I simfoniya" Soltan Hacıbəyov

13. **Hansı sırada rus bəstəkarı Sergey Prokofyevin baletləri verilib?**
A) "Otello", "Parisinalovları", "Baxçasaray fəvvarəsi"
B) "Məhəbbət əfsanəsi", "Jizel", "Romeo və Culyetta"
C) "Romeo və Cülyetta", "Zoluşka", "Daş çiçək"
D) "Yeddi gözəl", "İldırımlı yollarla"
E) "Şelkunçik", "Yatmış gözəl", "Qu quşu gölü"

14. **Kantata nədir ?**
A) Vokal instrumental musiqili dram əsəri
B) Simfonik orkestrin müşayiəti ilə ifa edilən vokal rəqs səhnələrindən və danışıq epizodlarından ibarət komediya məzmunlu musiqili səhnə əsəri
C) Böyük musiqi-vokal əsərinin yazılı mətni
D) Musiqili xoreoqrafik tamaşa
E) Çoxhissəli təntənə xarakterli vokal sim**fonik əsər**

15. **Vasif Adıgözəlovun oratoriyalarını seç:**
**1. "Sabir" oratoriyası**
**2. "Odlar yurdu" oratoriyası**
**3. "Qarabağ şikəstəsi" oratoriyası**
**4. "Torpağın səsi" oratoriyası**
**5. "Çanaqqala" oratoriyası**
**6. "Füzuli" oratoriyası**
**7. "Zamanın bayraqdarı" oratoriyası**
**8. "Qəm karvanı" oratoriyası**
A) 1,2,3,4,5 B) 2,4,6,8,9 C) 1,3,5,7
D) 2,3,5,8 E) 1,3,5,7,8

16. **Hansı əsər Lüdviq Van Bethoven tərəfindən bəstələnmiş əsər deyil?**
A) "Patetik" sonata B) "Vida" simfoniyası
C) "Ay sonatası" D) "Heroik" simfoniya
E) "Appasionata"